MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

Müəllif:

ƏLİ HƏMƏDANİ

Azəri

2010-06-26 09:56:03

Bu kitab müəssisədə təshih edilibdir

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

100 HƏDİS

TOPLAYAN: ƏLİ HƏMƏDANİ TƏRCÜMƏ EDƏN: MİQDAD

Bismillahir-Rəhmanir-Rəhim

Hədis 1: Həzrət Məhəmməd (s) buyurur: “Bütün yaxşılıqlardan üstün bir yaxşılıq vardır. Lakin insan Allah yolunda öldürüldükdə, daha bundan da üstün bir yaxşılıq yoxdur.” * * *

Hədis 2: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir damla Allah yolunda tökülən qan damlasından əziz deyil.” * * *

Hədis 3: İmam Sadiq (ə) buyurur: “Hər kəs Allah yolunda öldürülsə, Allah-təala ona heç bir günahını göstərməz.” (Bütün günahları bağışlanar). * * *

Hədis 4: İmam Sadiq (ə) buyurur: “Ailə xərcinin qorxusundan evlənməyən kəs Allaha qarşı sui-zənn etmişdir.” * * *

Hədis 5: İmam Sadiq (ə) buyurur: “Hər kəs mö`mini yoxsulluğuna görə alçaq saysa, Allah-təala da qiyamət günü onu xalq qarşısında rüsvay edər.” * * *

Hədis 6: İmam Sadiq (ə) buyurur: “Bütün peyğəmbərlər bizim (Biz Əhli-beytin) üstünlüyümüzü və haqqımızı tanıyaraq məb`us olmuşdur.”

Hədis 7: İmam Baqir (ə) buyurur: “Üç şey insanın belini qırır: 1. Öz əməlini böyük saymaq; 2. Öz günahını yaddan çıxarmaq; 3. Öz rəyindən xoşu gəlmək.” * * *

Hədis 8: İmam Sadiq (ə) buyurur: “Allah-təalaya hüsn-zənn budur ki, Ondan başqa

heç kəsə ümidin olmasın və günahlarından başqa heç nədən qorxmayasan.” * * *

Hədis 9: İmam Həsən (ə) buyurur: “Günahın cəzasını verməkdə tələsmə, üzr üçün bir yol qoy.” * * *

Hədis 10: Həzrət Məhəmməd (s) buyurur: “Əməllərinizi Allah üçün xalisliklə yerinə yetirin. Həqiqətən, Allah yalnız Onun üçün xalisliklə yerinə yetirilmiş əməlləri qəbul edir.” * * *

Hədis 11: Həzrət Məhəmməd (s) buyurur: “Öz ümmətim üçün hər şeydən çox danışıqda mahir olan münafiqlərdən qorxuram.” * * *

Hədis 12: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala sevdiyi bəndəsini çətinliyə salar ki, onun ahuzarını eşitsin.” * * *

Hədis 13: Həzrət Məhəmməd (s) buyurur: “Bir şəxsi işlətmək üçün əcir tutduqda, haqqını ona əvvəlcədən e`lan edin.” * * *

Hədis 14: Həzrət Məhəmməd (s) buyurur: “Elm öyrənənin (din tələbəsinin) əcəli çatdıqda, şəhid kimi ölər.” * * *

Hədis 15: Həzrət Məhəmməd (s) buyurur: “Əgər öz yaxşı işindən sevinib, pis işindən narahat olursansa, deməli mö`minsən.” * * *

Hədis 16: Həzrət Məhəmməd (s) buyurur: “Qəzəbləndiyin zaman, sakit ol (dayan).” * * *

Hədis 17: Həzrət Məhəmməd (s) buyurur: “Tanışlarınızdan biri öldüyü zaman onu rahat buraxın və haqqında pis danışmayın.” * * *

Hədis 18: Həzrət Məhəmməd (s) buyurur: “Bir bəndə öldükdə camaat deyər: “Özündən sonra nə qoydu getdi?” Və mələklər deyər: “Özü ilə nə gətirdi?” * * *

Hədis 19: Həzrət Məhəmməd (s) buyurur: “Ölənlərinizin yaxşılıqlarını yada salın və pisliklərinə göz yumun.” * * *

Hədis 20: Həzrət Məhəmməd (s) buyurur: “İki saleh qohumundan həya etdiyin kimi Allahdan həya et.” * * *

Hədis 21: Həzrət Məhəmməd (s) buyurur: “Xalqa möhtac olmayın və onlardan bir diş çöpü belə istəməyin.” * * *

Hədis 22: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın ən şücaətlisi öz nəfsinə qalib gələn şəxsdir.” * * *

Hədis 23: Həzrət Məhəmməd (s) buyurur: “Beşikdən qəbrədək elm axtarışında

(öyrənməkdə) olun.” * * *

Hədis 24: Həzrət Məhəmməd (s) buyurur: “Mö`minin çətinliyi hamıdan çoxdur, çünki o həm dünya, həm də axirət işləri ilə məşğul olmalıdır.” * * *

Hədis 25: Həzrət Məhəmməd (s) buyurur: “Az günah etsən, ölüm sənə asan olar.” * * *

Hədis 26: Həzrət Məhəmməd (s) buyurur: “Diş fırçalamaq barəsində mənə o qədər göstəriş verdilər ki, onun vacib olacağından qorxdum.” * * *

Hədis 27: Həzrət Məhəmməd (s) buyurur: “Dünyada hamıdan tox olan, qiyamətdə hamıdan ac olacaq.” * * *

Hədis 28: Həzrət Məhəmməd (s) buyurur: “Sədəqə var-dövləti artırar.” * * *

Hədis 29: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala ata və anaya yaxşılıq edən insanın ömrünü uzadar.” * * *

Hədis 30: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala bütün danışanların dilinə nəzarətçidir. Bəndə Allahdan qorxmalı və nə danışdığına fikir verməlidir.” * * *

Hədis 31: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala duada israr edənləri sevər.” * * *

Hədis 32: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala, bəndəsinin Ona tərəf uzadılmış əlini geri qaytarmaqdan və onu ümidsiz qoymaqdan həya edər.” * * *

Hədis 33: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala boş söz-söhbətləri sizə qadağan etdi.” * * *

Hədis 34: Həzrət Məhəmməd (s) buyurur: “İsrafın bir növü də ürəyin istədiyi hər bir şeyi yeməkdir.” * * *

Hədis 35: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs Allahdan bir şey istəməsə, Allah ona qəzəblənər.” * * *

Hədis 36: Həzrət Məhəmməd (s) buyurur: “Öz sübhünüzü sədəqə verməklə başlayın, çünki bəla sədəqənin üstündən keçə bilmir.” * * *

Hədis 37: Həzrət Məhəmməd (s) buyurur: “Sübh tezdən ruzi və hacət dalınca gedin, çünki tezdən durmaq bərəkət və qurtuluşa səbəbdir.” * * *

Hədis 38: Həzrət Məhəmməd (s) buyurur: “Varlıların yediyi, fəqirlərin isə məhrum olduğu toy xörəyi necə də pisdir.” * * *

Hədis 39: Həzrət Məhəmməd (s) buyurur: “Paxıl (xəsis) o şəxsdir ki, adım çəkiləndə mənə salavat göndərmir.” * * *

Hədis 40: Həzrət Məhəmməd (s) buyurur: “Çox yemək qəlbdə qəsavət (daşürəklilik) yaradır.” * * *

Hədis 41: Həzrət Məhəmməd (s) buyurur: “Oruc tutarkən obaşdan yeyin, çünki obaşdanlıq bərəkətin əsasıdır.” Hədis 42: Həzrət Məhəmməd (s) buyurur: “Bir-birinizə əl verin (görüşün) ki, qəlbinizdən kin xaric olsun.” * * *

Hədis 43: Həzrət Məhəmməd (s) buyurur: “Günahdan tövbə odur ki, onu təkrar etməyəsiniz.” * * *

Hədis 44: Həzrət Məhəmməd (s) buyurur: “Dünyanın şirinliyi axirətin acılığı və dünyanın acılığı axirətin şirinliyidir.” * * *

Hədis 45: Həzrət Məhəmməd (s) buyurur: “Qadının cihadı ərinə yaxşı baxmaqdır.” * * *

Hədis 46: Həzrət Məhəmməd (s) buyurur: “Evlənməyin ən yaxşısı odur ki, asan başa gəlsin.” * * *

Hədis 47: Həzrət Məhəmməd (s) buyurur: “Dostlarınızın ən yaxşısı eyblərinizi sizə deyəndir.” * * *

Hədis 48: Həzrət Məhəmməd (s) buyurur: “Allah rəhmət etsin o kəsə ki, öz dilini islah edər.” * * *

Hədis 49: Həzrət Məhəmməd (s) buyurur: “Çox gülmək qəlbi öldürər.” Hədis 50: Həzrət Məhəmməd (s) buyurur: “Əməl olunan elmdən savayı, bütün elmlər qiyamət günündə vizrü-vəbal olacaqdır.” * * *

Hədis 51: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir işi sabaha saxlama ki, hər günün öz işi var.” Hədis 52: Həzrət Məhəmməd (s) buyurur: “Özünüz yemədiyinizi yoxsullara yedirməyin.” * * *

Hədis 53: Həzrət Məhəmməd (s) buyurur: “Cahil (nadan) bir şəxs ya ifrat edər (həddi aşar), ya da geridə qalar.” * * *

Hədis 54: Həzrət Məhəmməd (s) buyurur: “Kim məsləhətləşsə peşman olmaz və kim də orta həddi gözləsə, yoxsul olmaz.” * * *

Hədis 55: Həzrət Məhəmməd (s) buyurur: “Bir şəxs özü üçün istədiyini din qardaşı üçün də istəmədikcə mö`min olmaz.” * * *

Hədis 56: Həzrət Məhəmməd (s) buyurur: “Heç bir kəs gücü çatmayan şeyi qonağı

üçün hazırlamamalıdır.” * * *

Hədis 57: Həzrət Məhəmməd (s) buyurur: “Camaata verilən heç bir sədəqə onların arasında yayılan elmdən üstün deyildir.” * * *

Hədis 58: Həzrət Məhəmməd (s) buyurur: “O işi ki, istəmirsən camaat səndən görsün, təklikdə də əncam vermə.” * * *

Hədis 59: Həzrət Məhəmməd (s) buyurur: “Mən hara, dünya hara?! Mənim dünyadakı vəziyyətim bir ağacın kölgəsində oturan, sonra onu orada qoyaraq durub gedən müsafir kimdir.” * * *

Hədis 60: Həzrət Məhəmməd (s) buyurur: “Sədəqə verməklə mal azalmaz.” * * *

Hədis 61: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs çox yeməyə adət etsə, ürəyi qəsavət bağlayar (daşlaşar).” * * *

Hədis 62: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs özünü hansı dəstəyə oxşadarsa, həmin dəstədəndir.” * * *

Hədis 63: Həzrət Əli (ə) buyurur: “Sizin qiymətiniz yalnız behiştdir, özünüzü ondan ucuzuna satmayın.” * * *

Hədis 64: Həzrət Məhəmməd (s) buyurur: “Elm ilə birgə olan yuxu, cəhl ilə birgə olan ibadətdən üstündür.” * * *

Hədis 65: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala övladlarınız arasında, hətta onları öpərkən belə ədalətə riayət etməyinizi sevir.” * * *

Hədis 66: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala yalnız rəhimli bəndələrinə rəhm edər.” * * *

Hədis 67: Həzrət Məhəmməd (s) buyurur: “Qadının bərəkətli olmasının əlaməti budur ki, elçiliyi asan, mehriyyəsi isə yüngül olsun.” * * *

Hədis 68: Həzrət Məhəmməd (s) buyurur: “Bu dünyada sizin üçün bir müsafirin azuqəsi qədər olan mal kifayətdir.” * * *

Hədis 69: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala behişti nə dediyinə və onun haqqında nə deyildiyinə əhəmiyyət verməyən pis danışıqlı adamlara haram etmişdir.” * * *

Hədis 70: Həzrət Məhəmməd (s) buyurur: “Sizin ən yaxşınız dünyaya daha rəğbətsiz, axirətə isə daha rəğbətli olanınızdır.” * * *

Hədis 71: Həzrət Məhəmməd (s) buyurur: “Qardaşın (öz din) qardaşına olan gizli

duası rədd ediləsi deyil.” * * *

Hədis 72: Həzrət Məhəmməd (s) buyurur: “Dünya mö`minin zindanı, kafirinsə behiştidir.” * * *

Hədis 73: Həzrət Məhəmməd (s) buyurur: “Allah o kəsə rəhmət etsin ki, sözlərindən artığını saxlayar, malının artığını isə sədəqə verər (paylayar).” * * *

Hədis 74: Həzrət Məhəmməd (s) buyurur: “Alimin iki rəkət namazı, alim olmayan adamın yetmiş rəkət namazından üstündür.” * * *

Hədis 75: Həzrət Məhəmməd (s) buyurur: “Allaha diqqətlə qılınan iki rəkət namaz, Allahdan qəflətdə qılınan min rəkət namazdan üstündür.” * * *

Hədis 76: Həzrət Əli (ə) buyurur: “Kim özünü hesaba çəksə, səadətə yetişər.” * * *

Hədis 77: Həzrət Məhəmməd (s) buyurur: “Elmin fəziləti ibadətin fəzilətindən çoxdur.” * * *

Hədis 78: Həzrət Məhəmməd (s) buyurur: “Elmlə olan az əməl faydalı, cəhalətlə olan çox əməl isə faydasızdır.” * * *

Hədis 79: Həzrət Məhəmməd (s) buyurur: “Əgər mənim bildiklərimi bilsəydiniz, az gülüb çox ağlayardınız.” * * *

Hədis 80: Həzrət Məhəmməd (s) buyurur: “Bəndə öz dilini saxlamayınca, imanın həqiqətinə çatmaz.” * * *

Hədis 81: Həzrət Məhəmməd (s) buyurur: “İnsanı üzünə tə`rif etmək, onu qətlə yetirmək kimidir.” * * *

Hədis 82: Həzrət Məhəmməd (s) buyurur: “Allah yolunda bir gecə keşik çəkmək, min gecə namaz qılıb, gündüzləri də oruc tutmaqdan üstündür.” * * *

Hədis 83: Həzrət Məhəmməd (s) buyurur: “İslamın zirvəsi Allah yolunda cihaddır ki, yalnız ən üstün müsəlmanlar bu zirvəyə yetişərlər.” * * *

Hədis 84: Həzrət Məhəmməd (s) buyurur: “Günahdan tövbə edən şəxs günah etməmiş kimidir.” * * *

Hədis 85: Həzrət Məhəmməd (s) buyurur: “Günahdan tövbə etdiyi halda, onu təkrarlayan şəxs Allahı məsxərə etmiş kimidir.” * * *

Hədis 86: Həzrət Məhəmməd (s) buyurur: “Dünya sevgisi bütün xataların başlanğıcıdır.” * * *

Hədis 87: Həzrət Məhəmməd (s) buyurur: “Dünyan üçün elə çalış ki, sanki həmişə yaşayacaqsan. Axirətin üçün isə elə çalış ki, sanki sabah öləcəksən.” * * *

Hədis 88: Həzrət Məhəmməd (s) buyurur: “Adəm övladının xatalarının çoxu dilindədir.” * * *

Hədis 89: Həzrət Məhəmməd (s) buyurur: “Mö`mini şad edən məni şad etmiş, məni şad edən isə Allahı şad etmişdir.” * * *

Hədis 90: Həzrət Məhəmməd (s) buyurur: “Müsəlmana hiylə quran bizdən deyildir.” * * *

Hədis 91: Həzrət Məhəmməd (s) buyurur: “Qonşusu ac ikən özü tox yatan kəs mənə iman gətirməmişdir.” * * *

Hədis 92: Həzrət Məhəmməd (s) buyurur: “Qiyamət günü mö`minin əməl tərəzisinə xoş xasiyyətdən də üstün olan bir şey qoyulmayacaqdır.” * * *

Hədis 93: Həzrət Məhəmməd (s) buyurur: “Həqiqətən, xoşxasiyyətli şəxs üçün oruc tutub gecəni oyaq qalan adamın savabı vardır.” * * *

Hədis 94: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs sübh edə, lakin müsəlmanların işinə yarımaya, müsəlman deyildir.” * * *

Hədis 95: Həzrət Məhəmməd (s) buyurur: “Sizlərdən hər biriniz öz (din) qardaşına özünə etdiyi kimi xeyirxahlıq etməlidir.” * * *

Hədis 96: Həzrət Əli (ə) buyurur: “Qeybətə qulaq asan elə qeybət edən kimidir.” * * *

Hədis 97: Həzrət Əli (ə) buyurur: “Zarafatda həddi gözləməyən şəxs əbləhdir.” * * *

Hədis 98: Həzrət Əli (ə) buyurur: “Öz şəhvətini öldürən (cilovlayan) şəxs ağıllı insandır.” * * *

Hədis 99: Həzrət Əli (ə) buyurur: “Məsləhət edən şəxs xatadan amanda qalar.” * * *

Hədis 100: Həzrət Əli (ə) buyurur: “Allah yolunda döyüşənlər üçün göyün qapıları açılar.”

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

200 hədis

Hədis 101: Həzrət Əli (ə) buyurur: “Tövbə etmək qəlbləri paklayır, günahları yuyur.” * * *

Hədis 102: Həzrət Əli (ə) buyurur: “Mö`min onunla insafsız rəftar edənlə insafla davranar.” * * *

Hədis 103: Həzrət Əli (ə) buyurur: “Bilərəkdən günah edən şəxs bağışlanmağa layiq deyildir.” * * *

Hədis 104: Həzrət Əli (ə) buyurur: “Zülm və fəsad yolundan çəkinib itaət yolunu tutun ki, axirətdə xoşbəxt olasınız.” * * *

Hədis 105: Həzrət Əli (ə) buyurur: “Allahdan həya etmək bir çox günahları aradan aparır.” * * *

Hədis 106: Həzrət Əli (ə) buyurur: “Elimsiz əməl etmək zəlalətdir (yoldan azmaqdır).” * * *

Hədis 107: Həzrət Əli (ə) buyurur: “Bəndələrin dünyadakı əməlləri, axirətdə gözlərinin qabağında olacaqdır.” * * *

Hədis 108: Həzrət Əli (ə) buyurur: “Təqvalıların nəfsi qane, şəhvətləri ölü, çöhrələri açıq, qəlbləri isə qəmgindir. ” * * *

Hədis 109: Həzrət Əli (ə) buyurur: “Dünya bulud kölgəsi və şirin yuxu kimidir.” * * *

Hədis 110: Həzrət Əli (ə) buyurur: “Ağıllı şəxs odur ki, öz nəfsi üzərində qələbə çalsın və axirətini dünyasına dəyişməsin.” * * *

Hədis 111: Həzrət Əli (ə) buyurur: “Kimə bu dörd şey verilsə, ona dünya və axirət xeyri verilmişdir: danışıqda düzlük, əmanəti qaytarmaq, qarnı (haramlardan) gözləmək, xoş xasiyyət.” * * *

Hədis 112: Həzrət Əli (ə) buyurur: “Qəzəbdən çəkin ki, onun başlanğıcı dəlilik, sonu isə peşmançılıqdır.” * * *

Hədis 113: Həzrət Əli (ə) buyurur: “Ağıllı şəxs odur ki, dilini saxlasın.” * * *

Hədis 114: Həzrət Əli (ə) buyurur: “Yalan dünyada rüsvayçılıq, axirətdə isə əzabdır.” * * *

Hədis 115: Həzrət Əli (ə) buyurur: “Allaha itaətə səbr etmək, Onun əzabına səbr etməkdən asandır.” * * *

Hədis 116: Həzrət Əli (ə) buyurur: “Mö`min o adamdır ki, sevgisi Allaha görə, nifrəti Allaha görə, alış-verişi də Allaha görədir.” Hədis 117: Həzrət Əli (ə) buyurur:

“Alim cahili tanıyır, çünki özü də əvvəl cahil olmuşdur.” * * *

Hədis 118: Həzrət Əli (ə) buyurur: “Nadan alimi tanımır, çünki özü əvvəl alim olmamışdır.” * * *

Hədis 119: Həzrət Əli (ə) buyurur: “Yaxşı işlər istisna olmaqla, bütün işlərdə ifrat etmək pisdir.” * * *

Hədis 120: Həzrət Əli (ə) buyurur: “İnsan üçün nadanlığın ziyanı, cüzamın onun bədəninə vurduğu ziyandan daha çoxdur.” * * *

Hədis 121: Həzrət Əli (ə) buyurur: “O adam mənfəət tapar ki, dünyasını axirətinə sata və əvəzində axirəti ala.” * * *

Hədis 122: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, riyakarlığın ən aşağı mərtəbəsi belə, Allaha qarşı şirkdir.” * * *

Hədis 123: Həzrət Əli (ə) buyurur: “Heç kim öz Rəbbindən savayı başqasına ümidvar olmamalı və yalnız öz günahlarından qorxmalıdır.” * * *

Hədis 124: Həzrət Əli (ə) buyurur: “Bir kəs ki, özünü töhmət hüzurunda qərar verir, ona bədgüman olanları qınamamalıdır.” * * *

Hədis 125: İmam Sadiq (ə) buyurur: “İmanlı bir şəxs heç vaxt öz şəhvətinə məğlub olmaz və qarnı onun rüsvayçılığına səbəb olmaz.” * * *

Hədis 126: Həzrət Əli (ə) buyurur: “Susub həqiqəti gizləməkdə heç bir xeyir yoxdur (pisdir). Necə ki, nadanlıq üzündən danışmaq yaxşı deyildir.” * * *

Hədis 127: Həzrət Əli (ə) buyurur: “Kişi öz dilinin altında gizlənmişdir. * * *

Hədis 128: Həzrət Əli (ə) buyurur: “Fürsəti əldən vermək qəm-qüssədir.” * * *

Hədis 129: Həzrət Əli (ə) buyurur: “Ağıl kamillik mərtəbəsinə çatanda, danışıq qısalar.” * * *

Hədis 130: Həzrət Əli (ə) buyurur: “Atanın övlada ədəb və tərbiyədən daha üstün hədiyyəsi ola bilməz.” Hədis 131: Həzrət Məhəmməd (s) Əliyə (ə) buyuruğu: “Övladını pis tərbiyə edərək onların üzə qayıtmasına səbəb olan ata-anaya Allah lə`nət etsin.” Hədis 132: İmam Əliyyən Nəqi (ə) buyurur: “Özünü bəyənmək insanı elm öyrənməkdən saxlayar.” * * *

Hədis 133: Həzrət Əli (ə) buyurur: “Heç bir kəs əqlinin bir hissəsini vermədən zarafat etmədi.” * * *

Hədis 134: Həzrət Əli (ə) buyurur: “Dini hökmləri bilmədən ticarətlə məşğul olan

şəxs sələmə düçar olar.” * * *

Hədis 135: Həzrət Əli (ə) buyurur: “Hər bir insanın rə`yinin dəyəri onun təcrübəsi qədərincədir.” * * *

Hədis 136: Həzrət Əli (ə) buyurur: “Ləzzətlərin gedəcəyi və günahların qalacağı yadınızda olsun.” * * *

Hədis 137: Həzrət Məhəmməd (s) buyurur: “Allahın razılığı ata-ananın razılığında, qəzəbi isə onların qəzəbindədir.” * * *

Hədis 138: Həzrət Əli (ə) buyurur: “Günah etməmək tövbə etməkdən daha asandır.” * * *

Hədis 139: Həzrət Əli (ə) buyurur: “Allaha itaətsizlik edənlərə itaət etmək rəva deyildir.” Hədis 140: Həzrət Əli (ə) buyurur: “Yoxsulluq çox böyük ölümdür.” * * *

Hədis 141: Həzrət Məhəmməd (s) buyurur: “Peyğəmbərlik məqamına daha yaxın olanlar alimlər və (haqq yolda) cihad edənlərdir.” * * *

Hədis 142: Həzrət Əli (ə) buyurur: “Səni kədərləndirən pis bir işin səni məğrur edən xeyir işindən Allah yanında daha yaxşıdır.” * * *

Hədis 143: Həzrət Məhəmməd (s) buyurur: “Bir qəbilənin ölümü alimin ölümündən daha asan və dözüləsidir.” * * *

Hədis 144: Həzrət Məhəmməd (s) buyurur: “Hər hansı bir məclisdə oturub elmini artırmayan kəs, Allahdan uzaqlığını artırmışdır.” * * *

Hədis 145: İmam Riza (ə) buyurur: “İbadət çoxlu oruc və namaz yox, yaradılış haqqında (Allahın yaratdıqlarında) düşünməkdir.” * * *

Hədis 146: İmam Riza (ə) buyurur: “Sükut hikmət qapılarından olan bir qapıdır.” Hədis 147: İmam Riza (ə) buyurur: “Qohumluq əlaqəsini bir içim su ilə də olsa, möhkəmləndir. * * *

Hədis 148: İmam Riza (ə) buyurur: “Bir-birinizin görüşünə gedin ki, dostluğunuz möhkəmlənsin.” * * *

Hədis 149: İmam Riza (ə) buyurur: “Peyğəmbər ailəsinə dostluq ümidi ilə saleh əməli və ibadətdə sə`y göstərmənizi tərk etməyin.” * * *

Hədis 150: İmam Riza (ə) buyurur: “Günahları və mö`minə əziyyət verməyi tərk etməkdən daha faydalı təqva yoxdur.” * * *

Hədis 151: İmam Sadiq (ə) buyurur: ”Allah-təala qafil qəlblə edilən duanı qəbul

buyurmaz, ona görə də agah qəlblə dua et və duanın qəbul olacağına əmin ol.” * * *

Hədis 152: İmam Məhəmməd Təqi (ə) buyurur: “Şükrü yerinə yetirilməyən bir ne`mət bağışlanmayan günah kimidir.” * * *

Hədis 153: İmam Məhəmməd Təqi (ə) buyurur: “Allahın tə`qib etdiyi bir kəs necə qaça bilər?!” * * *

Hədis 154: İmam Məhəmməd Təqi (ə) buyurur: “Bir çox insanların nifrətini qazanmadan Allah məhəbbətini ələ gətirmək qeyri-mümkündür.” * * *

Hədis 155: İmam Məhəmməd Təqi (ə) buyurur: “Allahdan qeyrisinə ümidvar olanı Allah elə onun ümidinə buraxar.” * * *

Hədis 156: İmam Əliyyən Nəqi (ə) buyurur: “Öz dəyərini anlamayan adamın şərindən qorun.” * * *

Hədis 157: İmam Əliyyən Nəqi (ə) buyurur: “Dünya bir bazardır. Bu bazarda kimi qazanır, kimi isə zərərə düşür.” * * *

Hədis 158: İmam Əliyyən Nəqi (ə) buyurur: “Bəla səbirli şəxs üçün bir, səbirsiz şəxs üçün isə ikidir.” * * *

Hədis 159: İmam Əliyyən Nəqi (ə) buyurur: “Allah-təala, Onu qəzəbləndirəni xalqın qəzəbinə düçar edər.” * * *

Hədis 160: İmam Həsən Əskəri (ə) buyurur: “Dostunu xəlvətdə nəsihət edən şəxs onu zinətləndirmişdir.” * * *

Hədis 161: İmam Həsən Əskəri (ə) buyurur: “Dostunu aşkar surətdə nəsihət edən kəs onu xəcil (xəcalətli) etmişdir.” * * *

Hədis 162: İmam Həsən Əskəri (ə) buyurur: “Dostlarının ən yaxşısı o kəsdir ki, sənin günahlarını unudub, yaxşılıqlarını yadda saxlasın.” * * *

Hədis 163: İmam Həsən Əskəri (ə) buyurur: “Şöhrət və rəyasət istəməkdən çəkin. Çünki bu ikisi insanı məhvə sürükləyir.” * * *

Hədis 164: İmam Həsən Əskəri (ə) buyurur: “Müsibət görmüş adamın yanında şadlanmaq ədəbdən deyildir.” * * *

Hədis 165: İmam Həsən Əskəri (ə) buyurur: “Ehtiyatın bir həddi vardır ki, onu aşdıqda qorxaqlığa çevrilər.” * * *

Hədis 166: Həzrət Əli (ə) buyurur: “Kömək və yardım (Ruzi barəsində) ehtiyac olan

qədər (Allah tərəfindən) çatasıdır.” * * *

Hədis 167: İmam Həsən Əskəri (ə) buyurur: “Mö`mini zillətə salan bir şeyə onun meyl göstərməsi necə də pisdir.” * * *

Hədis 168: İmam Həsən (ə) buyurur: “Siz qısa müddət ərzində və saylı günlərdə yaşayırsınız, ölüm isə qəfildən gəlir .” * * *

Hədis 169: Həzrət Məhəmməd (s) buyurur: “Elm öyrətdiyiniz və ya elm öyrəndiyiniz şəxslə yumşaq davranın.” Hədis 170: Həzrət Məhəmməd (s) buyurur: “Ölümümdən sonra ümmətim üçün ən çox qorxduğum şəxs Qur`anı yanlış təfsir və tə`vil edən şəxsdir.” * * *

Hədis 171: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala Öz bəndəsinin tövbəsini canı çıxana qədər qəbul edir.” * * *

Hədis 172: Həzrət Məhəmməd (s) buyurur: “Bir şəxsin qaib bir şəxs barəsində etdiyi dua daha tez qəbul olar.” * * *

Hədis 173: Həzrət Məhəmməd (s) buyurur: “Qiyamətdə barəsində sorğu-sual olanan ilk şey namazdır.” * * *

Hədis 174: Həzrət Məhəmməd (s) buyurur: “Təəccüb edirəm o kəsə ki, ölüm onun sorağında ikən, o, dünya istəyindədir.” * * *

Hədis 175: Həzrət Məhəmməd (s) buyurur: “Elm axtarışında olan şəxsin ruzisini Allah yetirər.” * * *

Hədis 176: Həzrət Məhəmməd (s) buyurur: “Mənim ümmətimə qarşı mehriban olanla Allah da mehriban olar.” * * *

Hədis 177: Həzrət Məhəmməd (s) buyurur: “Müsəlmanların qeybətini etməyin və onların eyiblərini araşdırmayın (axtarmayın).” * * *

Hədis 178: Həzrət Əli (ə) buyurur: “Xoş o kəsin halına ki, Allaha ibadət etmək müvəffəqiyyətinə nail olub, günah və xatasına isə ağlayır.” * * *

Hədis 179: Həzrət Əli (ə) buyurur: “Xoş o kəsin halına ki, arzuları qısadır və ömrünü qənimət sayır.” * * *

Hədis 180: Həzrət Əli (ə) buyurur: “Əməl etmədən behişt istəmək axmaqlıqdır.” * * *

Hədis 181: Həzrət Əli (ə) buyurur: “Dil yarası (tə`nə vurmaq) nizə yarasından daha yandırıcıdır.” * * *

Hədis 182: Həzrət Əli (ə) buyurur: “Başqalarının ölümünü gördüyü halda öz ölümünü unudan kəsə təəccüb edirəm.” * * *

Hədis 183: Həzrət Əli (ə) buyurur: “Hər gün canının və ömrünün əskildiyini görə-görə ölüm üçün bir iş görməyən kəsə təəccüb edirəm .” * * *

Hədis 184: Həzrət Əli (ə) buyurur: “Təəccüb edirəm o kəsə ki, ölüm yatağından qorxur, lakin günahdan uzaqlaşmır.” * * *

Hədis 185: Həzrət Əli (ə) buyurur: “Dünyada gedəcəyini bildiyi halda axirəti üçün azuqə hazırlamayan kəsə təəccüb edirəm.” * * *

Hədis 186: Həzrət Əli (ə) buyurur: “O kəsə təəccüb edirəm ki, danışdığı sözlərin nə dünyada ona bir xeyri var, nə də axirəti üçün savab yazılır.” * * *

Hədis 187: Həzrət Əli (ə) buyurur: “O kəsə təəccüb edirəm ki, özündən yuxarıdakının mərhəmətinə ümidvar olduğu halda, ondan asılı olanları ümidsiz qaytarır.” * * *

Hədis 188: Həzrət Məhəmməd (s) buyurur: “Xalq bir şəxsin dilindən qorxarsa, o şəxs cəhənnəm əhlidir.” * * *

Hədis 189: Həzrət Məhəmməd (s) buyurur: “Fürsətləri əldən vermək qəm-qüssə gətirər.” * * *

Hədis 190: İmam Kazim (ə) buyurur: “Mö`min tərəzinin iki gözü kimidir − imanı artdıqca, bəlası da artar.” * * *

Hədis 191: İmam Kazim (ə) buyurur: “Öz (din) qardaşını aldadan şəxs məl`undur.” * * *

Hədis 192: İmam Kazim (ə) buyurur: “Öz (din) qardaşına nəsihət verməyən (onun yaxşılığını istəməyən) şəxs məl`undur.” * * *

Hədis 193: İmam Kazim (ə) buyurur: “Öz (din) qardaşının qeybətini edən şəxs məl`undur.” * * *

Hədis 194: İmam Kazim (ə) buyurur: “Allahdan qorx, haqqı söylə − sənin məhvin onda olsa da belə.” * * *

Hədis 195: İmam Kazim (ə) buyurur: “Allahın göndərdiyi bütün peyğəmbərlər səxavətli olmuşlar.” * * *

Hədis 196: İmam Kazim (ə) buyurur: “Uzun yaşayacağınızı özünüzə təlqin etməyin. Çünki bu adamı həris edər (tamahlandırar).” * * *

Hədis 197: İmam Kazim (ə) buyurur: “Nəfsinlə cihad et ki, onu faydasız həvəslərdən qoruyasan.” * * *

Hədis 198: Həzrət Əli (ə) buyurur: “Xalqla xoş keçinmək ağıl nişanəsidir.” Hədis 199: Həzrət Əli (ə) buyurur: “Ağılın ən yüksək dərəcəsi cəhli (bilməməzliyi) e`tiraf etməkdir.” * * *

Hədis 200: Həzrət Əli (ə) buyurur: “Aqilin ehtiyacsızlığı onun elminə görədir.” * * *

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

300 hədis

Hədis 201: Həzrət Əli (ə) buyurur: “Cahilin ehtiyacsızlığı malına görədir.” * * *

Hədis 202: Həzrət Əli (ə) buyurur: “İntizarı çəkiləsi ən layiqli (səlahiyyətli) şey gizli ölümdür ki, hər şeydən tez gəlib yetişir.” * * *

Hədis 203: Həzrət Əli (ə) buyurur: “Dost çətinlik zamanı tanınar.” * * *

Hədis 204: Həzrət Əli (ə) buyurur: “Gözün kor olması bəsirətin kor olmasından daha yüngüldür.” * * *

Hədis 205: Həzrət Əli (ə) buyurur: “Bircə saatlıq qısa düşünmək uzun-uzadı ibadətdən üstündür.” * * *

Hədis 206: Həzrət Əli (ə) buyurur: “O şəxs nicat tapar ki, faydasız həvəslərinə qalib gəlmiş, nəfsinin istəklərinə hakim olmuşdur.” * * *

Hədis 207: Həzrət Əli (ə) buyurur: “Büdrəməmək üçün əvvəlcə düşün, sonra danış.” * * *

Hədis 208: Həzrət Əli (ə) buyurur: “Az tapılır ki, insan qarınqulu olduğu halda, xəstələnməsin.” * * *

Hədis 209: Həzrət Əli (ə) buyurur: “Hər kəsin dəyəri onun biliyi qədərindədir.” * * *

Hədis 210: Həzrət Əli (ə) buyurur: “Az yemək bədəni bir çox xəstəliklərdən qoruyur.” * * *

Hədis 211: Həzrət Əli (ə) buyurur: “Əməl edilən az elm, əməl edilməyən çox elmdən üstündür.” * * *

Hədis 212: Həzrət Əli (ə) buyurur: “Axmağın qəlbi dilinin, aqilin dili isə qəlbinin arxasındadır (yə`ni, aqil əvvəlcə düşünər sonra danışar).” * * *

Hədis 213: İmam Sadiq (ə) buyurur: “Böyüklərimizə ehtiram göstərməyən, kiçiklərimizə isə rəhm etməyən kəs bizdən deyildir.” * * *

Hədis 214: İmam Sadiq (ə) buyurur: “Bizim vilayətimiz (hakimiyyətimiz) Allahın hakimiyyətidir. Heç bir peyğəmbər bu vilayətsiz məb’us edilməmişdir.” * * *

Hədis 215: İmam Sadiq (ə) buyurur: “Başqasının sirri üzərindən pərdəni götürənin öz evinin sirləri aşkar olar.” * * *

Hədis 216: İmam Sadiq (ə) buyurur: “Qardaşına quyu qazan özü düşər.” * * *

Hədis 217: İmam Sadiq (ə) buyurur: “Qadınlarınızın pak qalması üçün gözünüzü xalqın namusundan çəkin.” * * *

Hədis 218: İmam Sadiq (ə) buyurur: “Mö`min başqaları ilə keçinir və əsla kimsə ilə didişmir.” * * *

Hədis 219: İmam Sadiq (ə) buyurur: “Dolanışıqda orta həddi gözləyən şəxs heç vaxt fəqir olmaz.” * * *

Hədis 220: Həzrət Əli (ə) buyurur: “Çox vaxt bir saatlıq şəhvət ləzzətindən uzun qəm-qüssə yaranır.” * * *

Hədis 221: İmam Sadiq (ə) buyurur: “İnsanın daxili islah olarsa, zahiri rəftarı möhkəmlənər.” * * *

Hədis 222: İmam Sadiq (ə) buyurur: “Tənbəllik və hövsələsizlikdən uzaq ol. Çünki bu iki hal bütün pisliklərin başlanğıcıdır.” * * *

Hədis 223: İmam Baqir (ə) buyurur: “Allah-təala - pis danışan, lə`nət deyən və tə`nə vuranları sevmir.” * * *

Hədis 224: İmam Baqir (ə) buyurur: “Bizim şiəmiz olan şəxs təqvalıdır, Allaha itaət edən və xalqın haqqında yalnız yaxşı sözlər danışanıdır.” * * *

Hədis 225: İmam Baqir (ə) buyurur: “Sənə zülm etmişlərsə də, sən zülm etmə.” * * *

Hədis 226: İmam Baqir (ə) buyurur: “Səni yalan danışmaqda ittiham edərlərsə, qəzəblənmə.” * * *

Hədis 227: İmam Baqir (ə) buyurur: “Səni tə`rif etsələr, sevinmə.” * * *

Hədis 228: İmam Baqir (ə) buyurur: “Hikməti, hətta ona əməl etməyəndən də olsa, öyrənin.” * * *

Hədis 229: İmam Baqir (ə) buyurur: “Əlinə fürsət düşəndə səhlənkarlıq etmə.” * * *

Hədis 230: “Saleh insanların məclisi insanı islaha vadar edər.” * * *

Hədis 231: İmam Səccad (ə) buyurur: “Yaradılış məqsədiniz barədə düşünün və ona əməl edin. Çünki Allah sizi əbəs yerə yaratmamışdır.” * * *

Hədis 232: İmam Səccad (ə) buyurur: “Cəhənnəm odundan qorxan şəxs günahlarından tövbə edər.” * * *

Hədis 233: İmam Səccad (ə) buyurur: “Allahın ən xoşu gələn şey budur ki, insan Onu tanıdıqdan sonra qarnını və cinsiyyət üzvlərini haramlardan qorusun.” * * *

Hədis 234: İmam Səccad (ə) buyurur: “Əgər bir şəxs səni söydükdən sonra üzr istəyərsə, onu bağışla.” * * *

Hədis 235: Həzrət Əli (ə) buyurur: “Hər kim orta həddi gözləsə, həlak olmaz.” * * *

Hədis 236: İmam Səccad (ə) buyurur: “Pis işi tərk etməkdən çəkinmə; bu pis əmələ məşhur olsan da belə.” * * *

Hədis 237: İmam Həsən (ə) buyurur: “Düşüncə sahibi olub-olmamaq qəzəblənən vaxt bilinər.”

Hədis 238: İmam Hüseyn (ə) buyurur: “Fisq-fücur əhli ilə (günahkarlarla) yoldaşlıq etmək insana qarşı sui-zənn yaradır.” * * *

Hədis 239: İmam Hüseyn (ə) buyurur: “Bə’zi insanlar dünyanın bəndəsidirlər və dindarlıqları yalnız dildədir. Maddi həyatlarına uyğun gələnədək dinlə yoldaşlıq edirlər. İmtahana çəkildikdə isə dindarlar az olur.” * * *

Hədis 240: İmam Hüseyn (ə) buyurur: “Mən ölümü eynilə xoşbəxtlik, zalımlarla yaşamağı isə ağrılı bir əzab sanıram.” * * *

Hədis 241: İmam Hüseyn (ə) buyurur: “Xalqın ən səxavətlisi o kəsdir ki, heç bir hədiyyə ummadığı şəxslərə (bir şey) əta etsinlər.” * * *

Hədis 242: İmam Hüseyn (ə) buyurur: “Üzr istəməli olacağın işdən uzaq ol. Çünki mö`min nə pis iş görər, nə də üzr istəyər.” * * *

Hədis 243: İmam Hüseyn (ə) buyurur: “Başqalarının günahından qorxan, lakin öz günahının cəzasını yaddan çıxaranlardan olma.” * * *

Hədis 244: İmam Hüseyn (ə) buyurur: “Salam verməyin yetmiş savabı var. Onun altmış doqquzu salam verənin, biri isə salamı alanındır.” * * *

Hədis 245: İmam Əli (ə) buyurur: “Nə çoxdur dilin üzündən həlak olanlar!” * * *

Hədis 246: İmam Əli (ə) buyurur: “Çox çətinliklər mülayimliklə asanlaşır.” * * *

Hədis 247: İmam Əli (ə) buyurur: “Çoxları axirət üçün olan əməli o qədər tə`xirə salır ki, axırı ölüm onun yaxasından yapışır.” * * *

Hədis 248: İmam Əli (ə) buyurur: “Çoxlarının orucu susuz qalmaqdan başqa bir şey deyildir.” * * *

Hədis 249: Həzrət Əli (ə) buyurur: “Çoxlarının namazı, əziyyət və yorğunluqdan başqa bir şey deyildir.” * * *

Hədis 250: Həzrət Əli (ə) buyurur: “Əcəli çatdığı halda, mal toplamaqda olan bədbəxt nə çoxdur.” * * *

Hədis 251: Həzrət Əli (ə) buyurur: “Özünü islah etməyən şəxs başqasını necə islah edə bilər?!” * * *

Hədis 252: Həzrət Əli (ə) buyurur: “Qəlbini dünya məhəbbəti tutan kəs Allah sevgisini necə iddia edə bilər?!” * * *

Hədis 253: Həzrət Əli (ə) buyurur: “Nadanlığın sübutu üçün insanın özündən razı olmağı yetər.” * * *

Hədis 254: Həzrət Əli (ə) buyurur: “Hədsiz zarafat abır-həyanı aradan aparır və düşmənçiliyə səbəb olur.” * * *

Hədis 255: Həzrət Əli (ə) buyurur: “Hədsiz zarafat axmaqlıq nişanəsidir.” * * *

Hədis 256: Həzrət Əli (ə) buyurur: “Kömək etdiyin kimi kömək görərsən.” * * *

Hədis 257: Həzrət Əli (ə) buyurur: “Axirəti üçün sədəqə verməyənlərə dünyanın heç bir faydası yoxdur.” * * *

Hədis 258: Həzrət Əli (ə) buyurur: “Çox gülənin qəlbi ölər.” * * *

Hədis 259: Həzrət Əli (ə) buyurur: “Başqalarının eyblərindən danışan kəs əvvəlcə öz eyblərindən başlamalıdır.” * * *

Hədis 260: Həzrət Məhəmməd (s) buyurur: “Özün üçün bəyənmədiyini başqaları üçün bəyənmə. Özün üçün istədiyini qardaşın üçün də istə.” * * *

Hədis 261: Həzrət Məhəmməd (s) buyurur: “Fikirləşmək kimi ibadət, məsləhətləşmək kimi e`tibarlı kömək yoxdur.” * * *

Hədis 262: Həzrət Məhəmməd (s) buyurur: “Çox gülməkdən çəkin, çünki çox gülmək qəlbi öldürər.” * * *

Hədis 263: Həzrət Məhəmməd (s) buyurur: “O şəxs bağışlanmağa daha layiqdir ki, intiqam almağa qüdrəti daha çoxdur.” * * *

Hədis 264: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın ən dəyərlisi faydasız işdən uzaqlaşan kəsdir.” * * *

Hədis 265: Həzrət Məhəmməd (s) buyurur: “Xoş o kəsin halına ki, öz eyblərinə məşğul olduğuna görə, mö`minlərdə eyb axtarmaqdan uzaqdır.” * * *

Hədis 266: Həzrət Məhəmməd (s) buyurur: “Bilmədən bir iş görən şəxsin xarab etdiyi düzəltdiyindən çox olar.” * * *

Hədis 267: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs başqasının pis işini başqalarına bildirsə, özü o işi görmüş kimidir.” * * *

Hədis 268: Həzrət Məhəmməd (s) buyurur: “İsrafçılıq yaxşı deyildir, amma yaxşı işdə israf yoxdur.” * * *

Hədis 269: Həzrət Məhəmməd (s) buyurur: “Fürsətlər bulud kimi ötüşür.” * * *

Hədis 270: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın malında gözü olan şəxs həmişə qəmgin olar.” * * *

Hədis 271: Həzrət Məhəmməd (s) buyurur: “Xoş o kəsin halına ki, Allah qorxusu onu xalqın qorxusundan uzaqlaşdırmışdır.” * * *

Hədis 272: Həzrət Əli (ə) buyurur: “Heç bir iş sənin başını qatıb axirət işindən uzaqlaşdırmamalıdır. Çünki ömür olduqca qısadır.” * * *

Hədis 273: Həzrət Məhəmməd (s) buyurur: “Əzabı və əvəzi daha tez çatan günah ne`mətə qarşı naşükürlükdür.” * * *

Hədis 274: Həzrət Məhəmməd (s) buyurur: “Özünü fəqirliyə vuran fəqir olar.” * * *

Hədis 275: İmam Həsən (ə) buyurur: “Yaxşılıq odur ki, əvvəldə hey bu gün-sabaha salınmasın və sonradan da minnət qoyulmasın.” * * *

Hədis 276: İmam Həsən (ə) buyurur: “Zarafat insanın zəhmini azaldar və az danışan şəxs öz zəhmini artırar.” * * *

Hədis 277: İmam Həsən (ə) buyurur: “Düşünün, çünki düşüncə bəsirətli qəlb üçün həyat səbəbidir.” * * *

Hədis 278: İmam Əli (ə) buyurur: “Tövbə və bağışlanma yolu olduğu halda ümidsizliyə qapılan şəxsə təəccüb edirəm.” * * *

Hədis 279: İmam Həsən (ə) buyurur: “Oğlum, bir şəxsi yaxşı tanımamış, onunla dostluq etmə.” * * *

Hədis 280: İmam Həsən (ə) buyurur: “Kərəm odur ki, sənə ağız açılmamış əta edəsən.” * * *

Hədis 281: İmam Həsən (ə) buyurur: “Gözlərin ən üstünü xeyir işlərdə çalışan gözlərdir.” * * *

Hədis 282: İmam Həsən (ə) buyurur: “Özündən razı olmaq sizin nəsihət qəbul etməyinizə mane olur.” * * *

Hədis 283: İmam Həsən (ə) buyurur: “İbrətlərdən nəsihət alın və keçmişdəkilərin başlarına gələnlərdən ibrətlənin.” * * *

Hədis 284: İmam Həsən (ə) buyurur: “Dünya və axirət ağıl və düşüncə ilə əldə edilər.” * * *

Hədis 285: İmam Həsən (ə) buyurur: “Xoş xasiyyət qədər başqa heç bir şey həyatı şirin etmir.” * * *

Hədis 286: İmam Həsən (ə) buyurur: “Elminizi başqalarına öyrədin və başqalarının elmini öyrənin.” * * *

Hədis 287: İmam Həsən (ə) buyurur: “Ağılın kamilliyi xalqla xoş münasibətdə olmaqdır.” * * *

Hədis 288: Həzrət Əli (ə) buyurur: “Qəzəb və şəhvətinə məğlub olan şəxs dördayaqlılar (heyvanlar) sırasındadır.” * * *

Hədis 289: Həzrət Əli (ə) buyurur: “Qardaşına quyu qazanın özünü Allah o quyuya salar.”

Hədis 290: Həzrət Əli (ə) buyurur: “Xalqın eybi dalınca gəzən adamın eybini Allah açar.” * * *

Hədis 291: Həzrət Əli (ə) buyurur: “Başqalarının sirrini açan kəsin sirrini Allah açar.” * * *

Hədis 292: Həzrət Əli (ə) buyurur: “Axirət işlərini qaydaya salanın dünya işlərini Allah qaydaya salar.” * * *

Hədis 293: Həzrət Əli (ə) buyurur: “Allahın qəzavü-qədərinə imanı olan kəs başına

gələnlərə əhəmiyyət verməz.” * * *

Hədis 294: Həzrət Əli (ə) buyurur: “Özünü islah etməyən kəs başqasını islah edə bilməz.” * * *

Hədis 295: Həzrət Əli (ə) buyurur: “Başqasını nəsihət etməyə o kəs layiqdir ki, özünü nəsihət edir.” * * *

Hədis 296: Həzrət Əli (ə) buyurur: “Bütün qüvvəsini dünyaya sərf edən kəsin qiyamət günü ağrı və qüssəsi çox olar.” * * *

Hədis 297: Həzrət Əli (ə) buyurur: “Üzr istəyən halda cəza vermək necə də pisdir!” * * *

Hədis 298: Həzrət Əli (ə) buyurur: “Aşkarda görülməsi ayıb olan işi gizlində də görmə.” * * *

Hədis 299: Həzrət Əli (ə) buyurur: “Çox pisdir ki, insanın zahiri gözəl, batini isə nöqsanlı olsun.” * * *v Hədis 300: Həzrət Əli (ə) buyurur: “Xalqın bir-biri ilə xoş keçinməsi ən üstün əməllərdəndir.”

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

400 hədis

Hədis 301: Həzrət Məhəmməd (s) buyurur: “Allahı daha yaxşı tanıyan Ondan daha çox qorxar.” * * *

Hədis 302: Həzrət Məhəmməd (s) buyurur: “Ən yaxşı əməl Allaha görə dost və Allaha görə düşmən olmaqdır.” * * *

Hədis 303: Həzrət Məhəmməd (s) buyurur: “Möminlər bağışlayan və mülayimdirlər.” * * *

Hədis 304: Həzrət Həsən (ə) buyurur: “Bir-biri ilə məşvərət edən xalq kamala yetişər.” * * *

Hədis 305: İmam Həsən (ə) buyurur: “Sənə o kəs yaxındır ki, dostluq yolu ilə yaxın olsun, qohum olmasa da belə.” * * *

Hədis 306: Həzrət Məhəmməd (s) buyurur: “Gizli dua aşkar duadan yetmiş dəfə tə`sirlidir.” * * *

Hədis 307: Həzrət Məhəmməd (s) buyurur: “Vacib namazı vaxtı keçdikdən sonra qılan şəxs qiyamət günü mənim şəfaətimə nail olmaz.” * * *

Hədis 308: Həzrət Əli (ə) buyurur: “Diri şəxsin ölüyə qovuşmağı nə qədər də yaxındır.” * * *

Hədis 309: Həzrət Əli (ə) buyurur: “Dünyada əldə etdiklərin üçün o qədər də sevinmə.” * * *

Hədis 310: Həzrət Əli (ə) buyurur: “Dünyada əlindən çıxanlara görə o qədər də qəm yemə.” * * *

Hədis 311: Həzrət Əli (ə) buyurur: “Yediklərin aradan gedər, yedirtdiklərin isə qalar.” * * *

Hədis 312: Həzrət Əli (ə) buyurur: “Hər nəfəs ölümə doğru atılan bir addımdır.” * * *

Hədis 313: Həzrət Əli (ə) buyurur: “Sənə ən yaxın olan düşmən öz nəfsindir.” * * *

Hədis 314: Həzrət Əli (ə) buyurur: “Yəqin üzündən olan yuxu şəkk ilə qılınan namazdan yaxşıdır.” * * *

Hədis 315: Həzrət Əli (ə) buyurur: “Camaat içində birinə nəsihət vermək danlaqdır, nəsihət deyil.” * * *

Hədis 316: Həzrət Əli (ə) buyurur: “Bəsirət kor olanda gözün görməyi faydasızdır.” * * *

Hədis 317: Həzrət Əli (ə) buyurur: “Tam bilmədiyin şeyi danışma.” * * *

Hədis 318: Həzrət Əli (ə) buyurur: “Sınaqdan çıxarmamış dosta e`timad etmə.” * * *

Hədis 319: Həzrət Əli (ə) buyurur: “Bir şəxsdən bilmədiyi bir şey barəsində soruşulsa, “bilmirəm” deməyə əsla utanmamalıdır.” * * *

Hədis 320: Həzrət Əli (ə) buyurur: “Əsla, Qur`andan başqa yerdə şəfa axtarmayasınız, çünki Qur`an bütün dərdlərin şəfasıdır.” * * *

Hədis 321: Həzrət Əli (ə) buyurur: “Düşünmək kimi ibadət yoxdur.” * * *

Hədis 322: Həzrət Məhəmməd (s) buyurur: “Hər eşitdiyini danışmağın sənin yalançılığının sübutu üçün bəsdir.” * * *

Hədis 323: Həzrət Məhəmməd (s) buyurur: “Gizli sədəqə Pərvərdigarın qəzəbini söndürər.” * * *

Hədis 324: Həzrət Məhəmməd (s) buyurur: “Dilini saxlayan kəsin eyblərini Allah

örtər.” * * *

Hədis 325: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın haqqını itirməyənlər Allaha ən çox şükür edənlərdir.” * * *

Hədis 326: Həzrət Məhəmməd (s) buyurur: “Harada olursansa ol, Allahdan qorx.” * * *

Hədis 327: Həzrət Məhəmməd (s) buyurur: “Mö`min az xərcli və qanedir.” * * *

Hədis 328: Həzrət Məhəmməd (s) buyurur: “Mö`minin şərəfi gecə oyaq qalmaq, izzəti isə xalqdan ehtiyacsızlıqdır.” * * *

Hədis 329: Həzrət Məhəmməd (s) buyurur: “Mö`min bir dəlikdən iki dəfə sancılmaz (səhvini təkrar etməz).” * * *

Hədis 330: Həzrət Məhəmməd (s) buyurur: “Allah yanında ən yaxşı tövbə günahdan uzaqlaşmaq və peşmançılıqdır.” * * *

Hədis 331: Həzrət Məhəmməd (s) buyurur: “Qəlbiniz yumşalanda duanı qənimət bilin, çünki qəlbin riqqətliliyi rəhmətdir.” * * *

Hədis 332: Həzrət Məhəmməd (s) buyurur: “Az ne`mətə şükür etməyən, çoxa da şükür etməz.” * * *

Hədis 333: Həzrət Məhəmməd (s) buyurur: “Allah-təala duada israrlı olanı sevir.” * * *

Hədis 334: Həzrət Məhəmməd (s) buyurur: “Gülən halda günah edən şəxs ağlayan halda cəhənnəm oduna daxil olar.” * * *

Hədis 335: Həzrət Əli (ə) buyurur: “Nadanlıq kimi yoxsulluq yoxdur.” * * *

Hədis 336: Həzrət Əli (ə) buyurur: “Elm kimi şərəf yoxdur.” * * *

Hədis 337: Həzrət Əli (ə) buyurur: “Çox mülayim olan kəs peşman olmaz.” * * *

Hədis 338: Həzrət Əli (ə) buyurur: “Gözəl xasiyyət kimi yoldaş yoxdur.”

Hədis 339: Həzrət Əli (ə) buyurur: “Əmmarə (pisliyə çağıran) nəfs ilə cihad kimi cihad yoxdur.” * * *

Hədis 340: Həzrət Əli (ə) buyurur: “Vacib göstərişləri yerinə yetirmək kimi ibadət yoxdur.” * * *

Hədis 341: Həzrət Əli (ə) buyurur: “Çox yeməklə sağlamlıq bir araya sığmaz.” * * *

Hədis 342: Həzrət Əli (ə) buyurur: “Söyüş söyən adam kimi həyasız yoxdur.” * * *

Hədis 343: Həzrət Əli (ə) buyurur: “Günahdan pak olmaq kimi mürüvvət (kişilik) yoxdur.” * * *

Hədis 344: Həzrət Əli (ə) buyurur: “Din qardaşı ac olan halda mö`min tox olmaz.” * * *

Hədis 345: Həzrət Əli (ə) buyurur: “Ağıllı insan məşvərət etməkdən boyun qaçırmaz.” * * *

Hədis 346: Həzrət Əli (ə) buyurur: “Fəqirə mane olub, ona bir şey verməyən varlının günahı bütün günahlardan böyükdür.” * * *

Hədis 347: Həzrət Əli (ə) buyurur: “O şəxsə təəccüb edirəm ki, yaxşı bir sifətə görə tə`rifləndikdə sevinir, halbuki, bu sifətə malik olmadığını bilir.” * * *

Hədis 348: Həzrət Əli (ə) buyurur: “O şəxsə təəccüb edirəm ki, ona pis xasiyyəti haqqında deyiləndə qəzəblənir, halbuki, bu sifətə malik olduğunu bilir.” * * *

Hədis 349: Həzrət Əli (ə) buyurur: “Qəlbin günah fikirdən uzaq qalmaq orucu, qarının aclıq orucundan üstündür.” * * *

Hədis 350: Həzrət Əli (ə) buyurur: “Sağlamlıq pəhrizdəndir.” * * *

Hədis 351: Həzrət Əli (ə) buyurur: “Bir işə başlamazdan öncə məsləhət et, addım atmazdan qabaq düşün.” * * *

Hədis 352: Həzrət Əli (ə) buyurur: “Büdrəmə və peşmanlıqdan amanda qalmaq üçün ağıl sahibləri ilə məsləhətləş.” * * *

Hədis 353: Həzrət Əli (ə) buyurur: “Xeyirxahların ən pisi etdiyi yaxşılığa görə minnət qoyan kəsdir.” * * *

Hədis 354: Həzrət Əli (ə) buyurur: “Xalqın ən pisi başqalarında eyb axtarıb öz eybini görməyən kəsdir.”

Hədis 355: Həzrət Əli (ə) buyurur: “Xalqın ən pisi başqalarının səhvini bağışlamayan və eyblərini örtməyən kəsdir.” * * *

Hədis 356: İmam Baqir (ə) buyurur: “Başqalarının haqqında öz haqqınızda deyilməsini xoşladığınız sözləri danışın.” * * *

Hədis 357: Həzrət Əli (ə) buyurur: “Allaha itaət haqqında düşünmək səni əmələ sövq edər.” * * *

Hədis 358: Həzrət Əli (ə) buyurur: “Qeybəti dinləyən şəxs qeybət edənlə şərikdir.” * * *

Hədis 359: Həzrət Əli (ə) buyurur: “Bir saatlıq zəlalət bir ömrün izzətindən ağırdır.” * * *

Hədis 360: Həzrət Əli (ə) buyurur: “Böyüklərdən daha uzaq görən kiçiklər çoxdur.” * * *

Hədis 361: Həzrət Əli (ə) buyurur: “Dini olmayan zahidlər çoxdur.” * * *

Hədis 362: Həzrət Əli (ə) buyurur: “Göz korluğu bəsirət korluğundan yaxşıdır.” * * *

Hədis 363: Həzrət Əli (ə) buyurur: “İşin savabı ona çəkilən əziyyət qədərdir.” * * *

Hədis 364: Həzrət Əli (ə) buyurur: “İşi sonraya saxlamaq tənbəllik əlamətidir.” * * *

Hədis 365: Həzrət Əli (ə) buyurur: “Gəncliyindən qocalmamış, sağlamlığından da xəstələnməmiş istifadə et.” * * *

Hədis 366: Həzrət Əli (ə) buyurur: “Allah qorxusundan ağlamaqla günahlar yuyular.” * * *

Hədis 367: Həzrət Məhəmməd (s) buyurur: “İbadətlərin ən fəzilətlisi dini anlamaqdır.” * * *

Hədis 368: Həzrət Əli (ə) buyurur: “Əfv etmək vasitəsilə rəhmət nazil olar.” * * *

Hədis 369: Həzrət Əli (ə) buyurur: “Xoş xasiyyət ruzini artırır.” * * *

Hədis 370: Həzrət Əli (ə) buyurur: “Dua vasitəsi ilə bəla aradan qalxar.” * * *

Hədis 371: Həzrət Əli (ə) buyurur: “İzzət istəyirsənsə, onu Allaha itaətdə axtar.” * * *

Hədis 372: Həzrət Məhəmməd (s) buyurur: “Var-dövlətinə yox, ömrünə xəsis ol.” * * *

Hədis 373: Həzrət Əli (ə) buyurur: “İşə başlamazdan qabaq məsləhət et.” * * *

Hədis 374: Həzrət Əli (ə) buyurur: “Dalaşanda barışığa yer qoy.” * * *

Hədis 375: Həzrət Əli (ə) buyurur: “Şərəf var-dövlət və əsil-nəsəbdə yox, ağıl və ədəbdədir.” * * *

Hədis 376: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, insanların dünya və axirətdə ağaları

səxavətli insanlardır.” * * *

Hədis 377: Həzrət Əli (ə) buyurur: “Dünya elə bir tələdir ki, oraya onu tanımayanlar düşər.” * * *

Hədis 378: Həzrət Əli (ə) buyurur: “Uzaqgörənlik odur ki, Allaha itaət, nəfsə qarşı isə itaətsizlik edilsin.” * * *

Hədis 379: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, sən axirət üçün yaradılmısan, onun üçün də çalış.” * * *

Hədis 380: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, dünyadan üz döndərsən, dünya sənə üz tutacaqdır.” * * *

Hədis 381: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, dünyaya üz tutsan, o səndən üz döndərəcək.”

Hədis 382: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, sənin düşüncən bütün işləri əhatə etmək gücündə deyildir, belə isə, onu mühüm işlər üçün saxla.” * * *

Hədis 383: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, bu gün hesab yox, əməl, sabah isə əməl yox, hesab günüdür.” * * *

Hədis 384: Həzrət Əli (ə) buyurur: “Həqiqətən, ən fəzilətli cihad insanın öz nəfsi ilə olan cihadıdır.” * * *

Hədis 385: Həzrət Əli (ə) buyurur: “Mö`min üçün ən qiymətli hədiyyə ölümdür.” * * *

Hədis 386: Həzrət Əli (ə) buyurur: “Yaxşılıqların ən yaxşısı bizimlə (Əhli-beyt ilə) dostluq, günahların ən pisi isə bizimlə düşmənçilikdir.” * * *

Hədis 387: Həzrət Əli (ə) buyurur: “Allahı ən yaxşı tanıyan kəs Ondan daha çox istəyəndir.” * * *

Hədis 388: Həzrət Əli (ə) buyurur: “İnsanların ən ağıllısı öz eybini görüb, başqalarının eybinə kor olan kəsdir.” * * *

Hədis 389: Həzrət Məhəmməd (s) buyurur: “Xoş o kəsin halına ki, müsəlmandır və dolanışığı ehtiyacı qədərdir.” * * *

Hədis 390: Həzrət Məhəmməd (s) buyurur: “Bir-birinizlə rastlaşanda salam və əl verməklə görüşün. Bir-birinizdən bağışlanma istəyi ilə ayrılın.” * * *

Hədis 391: Həzrət Məhəmməd (s) buyurur: “Qohumların əlaqəni kəssə də, sən əlaqəni kəsmə.” * * *

Hədis 392: Həzrət Məhəmməd (s) buyurur: “Qeybət insanın imanına cüzamın bədənə göstərdiyindən daha tez tə`sir göstərər.” * * *

Hədis 393: Həzrət Əli (ə) buyurur: “Dua mö`minin qalxanıdır. Hansı qapını çox döyürsənsə, üzünə açılar.” * * *

Hədis 394: İmam Zeynəlabidin (ə) buyurur: “Bütün xeyirləri, xalqın əlində olana göz dikməməkdə gördüm.” * * *

Hədis 395: İmam Baqir (ə) buyurur: “Allahın verdiyi ruziyə qənaət edən kəs ən ehtiyacsız adamdır.” * * *

Hədis 396: İmam Baqir (ə) buyurur: “Mö`min mö`minin yetmiş böyük (kəbirə) günahını örtməyə borcludur.” * * *

Hədis 397: Həzrət Əli (ə) buyurur: “Hər kəs nəfsində cürbəcür yeməklər sevgisi əksə, cürbəcür xəstəliklər meyvəsi dərəcəkdir.” * * *

Hədis 398: İmam Baqir (ə) buyurur: “And olsun Allaha ki, O, Öz dərgahına israrla əl açanların istəyini verər.” * * *

Hədis 399: İmam Sadiq (ə) buyurur: “Yanına gəlmiş mö`min qardaşını əziz tutub, hörmət edən kəs Allahı əziz tutmuşdur.” * * *

Hədis 400: İmam Sadiq (ə) buyurur: “Mənim üçün iki nəfəri barışdırmaq iki qızıl sikkə sədəqə verməkdən daha üstündür.”

MƏSUMLARIN NURLU KƏLAMLARINDAN MƏSUMLARIN NURLU KƏLAMLARINDAN

500 hədis

* * * Hədis 401: İmam Sadiq (ə) buyurur: “Həqiqətən, xalqın ən çətin bəlalar görəni peyğəmbərlər, sonra onların ardınca gedənlər, sonra isə tərtiblə məqamına görə Allaha yaxın olanlardır.” * * *

Hədis 402: Həzrət Məhəmməd (s) buyurur: “Ümmətim üçün iki şeydən daha çox qorxuram: nəfs istəyi və uzun-uzadı olan arzular.” * * *

Hədis 403: İmam Sadiq (ə) buyurur: “Pis xasiyyətli adam özünə əzab verir.” * * *

Hədis 404: İmam Sadiq (ə) buyurur: “Hətta ona qarşı zülmkar olan ata-anasına düşmən nəzərlə baxan kəsin namazını Allah qəbul etməz.” * * *

Hədis 405: İmam Sadiq (ə) buyurur: “Mö`mini məzəmmət edən kəsi Allah dünya və axirətdə məzəmmət edəcəkdir.” * * *

Hədis 406: İmam Sadiq (ə) buyurur: “Dua etməyi unutmayın, çünki dua hər dərdin dərmanıdır.” * * *

Hədis 407: İmam Sadiq (ə) buyurur: “Həqiqətən, rahatlıq vaxtı edilən dua, bəla vaxtı olan ehtiyacları aradan aparar.” * * *

Hədis 408: İmam Sadiq (ə) buyurur: “Allaha edilən hər bir dua, Məhəmməd və ali-Məhəmmədə salavat göndərmədikcə, səmaya qalxa bilmir.” * * *

Hədis 409: İmam Sadiq (ə) buyurur: “Rastlaşdığın hər bir adama salam vermək təvazökarlıqdandır.” * * *

Hədis 410: İmam Riza (ə) buyurur: “Peyğəmbərlərin silahından yapışın. Soruşuldu ki, bu silah nədir? Buyurdu: Dua!” * * *

Hədis 411: Həzrət Əli (ə) buyurur: “Allahın ona verdiyindən razı olan insan xalqın ən ehtiyacsızıdır.” * * *

Hədis 412: Həzrət Əli (ə) buyurur: “Allahın yanında ən ağır günah odur ki, şəxs günahını yüngül saya.” * * *

Hədis 413: Həzrət Əli (ə) buyurur: “Allah üçün ən pis (mənfur) şəxs qeybət edən adamdır.” * * *

Hədis 414: Həzrət Əli (ə) buyurur: “İnsanların ən acizi dua etməkdə aciz olandır (dua etməyənlərdir).” * * *

Hədis 415: Həzrət Əli (ə) buyurur: “Xataların (səhvlərin) ən böyüyü dünya sevgisidir.” * * *

Hədis 416: Həzrət Əli (ə) buyurur: “Xalqa daha çox xeyir verən kəs xalqın ən fəzilətlisidir.” * * *

Hədis 417: Həzrət Əli (ə) buyurur: “İmanın ən möhkəm bağı Allaha görə dostluq və Allaha görə düşmənçilikdir.” * * *

Hədis 418: Həzrət Əli (ə) buyurur: “Başqalarına eyib bildiyini özünə də eyib bil.” * * *

Hədis 419: Həzrət Məhəmməd (s) buyurur: “Allahın ən sevdiyi iş dili saxlamaqdır.” * * *

Hədis 420: Həzrət Məhəmməd (s) buyurur: “Allah qarşısında ən yaxşı yemək çox adamın oturduğu süfrədəki yeməkdir.” * * *

Hədis 421: Həzrət Məhəmməd (s) buyurur: “Allah qarşısında ən yaxşı bəndə

xoşxasiyyət olanıdır.” * * *

Hədis 422: Həzrət Məhəmməd (s) buyurur: “Allah qarşısında ən sevimli bəndə Onun bəndələrinə daha faydalı olan kəsdir.” * * *

Hədis 423: Həzrət Məhəmməd (s) buyurur: “İmanını xalis (riyasız) et ki, az ibadət belə sənə kifayət etsin.” * * *

Hədis 424: Həzrət Məhəmməd (s) buyurur: “Xalqın ən təqvalısı xeyrinə, ya da zərərinə belə olsa, həqiqəti deyən kəsdir.” * * *

Hədis 425: Həzrət Məhəmməd (s) buyurur: “Allah qarşısında ən yaxşı iş, davamlı olan işdir, az olsa da belə.” * * *

Hədis 426: Həzrət Məhəmməd (s) buyurur: “Özün üçün istədiyini xalq üçün də istə ki, mö`min olasan.” * * *

Hədis 427: Həzrət Məhəmməd (s) buyurur: “Allah qarşısında vacib əməlləri yerinə yetirdikdən sonra ən yaxşı iş müsəlmanı şad etməkdir.” * * *

Hədis 428: Həzrət Əli (ə) buyurur: “İstər zarafata, istərsə də ciddi olaraq dediyi yalanı tərk etməyən kəs bizlərdən deyil.” * * *

Hədis 429: Həzrət Əli (ə) buyurur: “Heç bir əməl yalan kimi çirkin deyil.” * * *

Hədis 430: Həzrət Məhəmməd (s) buyurur: “İmanla küfr arasındakı məsafə namazın tərki qədərdir.” * * *

Hədis 431: İmam Riza (ə) buyurur: “Hər gün özünü hesaba çəkməyən, (yaxşı və pis əməlini tanımayan) bizdən deyildir.” * * *

Hədis 432: İbn Abbas (r) nəql edir: “Həzrət Əlinin (ə) xidmətində olduğum vaxt onun öz ayaqqabısını yamadığını gördüm. İmam (ə) soruşdu ki, bu bir tay ayaqqabının qiyməti nə qədərdir? Dedim ki, dəyəri yoxdur. Həzrət (ə) buyurdu: “And olsun Allaha, haqqı ayağa qaldırıb, batili məhv etmək istəməsəydim, mənim üçün bu bir tay ayaqqabı sizə hakimiyyətdən dəyərli olardı.” * * *

Hədis 433: İmam Təqi (ə) buyurur: “Mö`minin izzəti xalqa möhtac olmamasındadır.” * * *

Hədis 434: İmam Sadiq (ə) buyurur: “İnsanlar üç qisimdirlər: alimlər, tələbələr və su üstə olan saman çöpü kimi adamlar (nə öyrənən, nə də öyrədənlər).” * * *

Hədis 435: İmam Həsən (ə) buyurur: “Əgər müstəhəb işlər vacib işlərə zərər vurursa, onları boşlayın.” * * *

Hədis 436: İmam Kazim (ə) buyurur: “Allah, çox yatıb, bekar gəzən bəndəsini düşmən tutur.” * * *

Hədis 437: Həzrət Əli (ə) buyurur: “Allaha qarşı itaətsizlik edilməyən gün bayramdır.” * * *

Hədis 438: Həzrət Əli (ə) buyurur: “Ən pis adam səhvi bağışlamayan və eybi örtməyəndir.” * * *

Hədis 439: İmam Həsən (ə) buyurur: “Xalqla elə davran ki, sənlə o cür davranmasını istəyirsən.” * * *

Hədis 440: İmam Səccad (ə) buyurur: “Ən qiymətli adam dünyanın kimin əlində olmasına e`tina etməyəndir.” * * *

Hədis 441: İmam Kazim (ə) buyurur: “Dünya malı dənizin (şor) suyu kimidir. Susuz adam bu sudan içdikcə daha da susayar, nəhayət, həlak olar.” * * *

Hədis 442: Həzrət Məhəmməd (s) buyurur: “Elmi öyrənib ona əməl etməyən adamı Allah qiyamət günü məhşərə kor gətirər.” * * *

Hədis 443: Həzrət Məhəmməd (s) buyurur: “Elm və biliyi bağlayın. Soruşdular ki, necə bağlayaq? Buyurdu: Onu yazmaqla.” * * *

Hədis 444: Həzrət Əli (ə) buyurur: “Tövbə ilə özünüzü ətirləyin ki, günahların pis qoxusu sizi rüsvay etməsin.” * * *

Hədis 445: Həzrət Əli (ə) buyurur: “Tövbə qapısı açıq ikən günahının bağışlanacağından ümidini üzmə.” * * *

Hədis 446: Həzrət Əli (ə) buyurur: “Yalnız öz fikrinə istinad edən kəs büdrəyər.” * * *

Hədis 447: İmam Baqir (ə) buyurur: “Elmi fayda verən alim yetmiş min abiddən üstündür.”

Hədis 448: İmam Baqir (ə) buyurur: “Dünyasını axirətinə, axirətini isə dünyasına görə tərk edən kəs bizdən deyildir.” * * *

Hədis 449: “(Həzrət Peyğəmbərdən (s) soruşdular ki, ən pak qazanc nədir? Buyurdu:) İnsanın öz əli ilə qazandığı.” * * *

Hədis 450: Həzrət Əli (ə) buyurur: “Ataların öz övladları üçün qoya biləcəyi ən böyük irs ədəb və düzgün tərbiyədir.” * * *

Hədis 451: Həzrət Əli (ə) buyurur: “Günahdan çəkinən şəxs yaxşı iş görən şəxs

kimidir.” * * *

Hədis 452: Həzrət Məhəmməd (s) buyurur: “Ehtiyacı olmadığı halda mö`min qardaşının görüşünə gedən şəxs Allahın görüşünə getmiş kimidir.” * * *

Hədis 453: Həzrət Məhəmməd (s) buyurur: “Bir şəxsə var-dövlətinə görə ehtiram göstərən şəxsə Allah lə`nət etsin.” * * *

Hədis 454: Həzrət Əli (ə) buyurur: “Həyat ölümə necə də yaxındır!” * * *

Hədis 455: Həzrət Əli (ə) buyurur: “Əta etdiyini çox da böyük hesab etmə, sən özün ondan da böyüksən.” * * *

Hədis 456: Həzrət Əli (ə) buyurur: “Nə yaxşı olar ki, insan aza qane olsun, çox əta etsin.” * * *

Hədis 457: Həzrət Əli (ə) buyurur: “Yeməkdə orta həddi gözləyənin sağlamlığı və düşüncəsi təmiz olar.” * * *

Hədis 458: Həzrət Məhəmməd (s) buyurur: “Batini zahirinə müxalif olan kəs münafiqdir.” * * *

Hədis 459: “(Həzrət peyğəmbərdən (s) soruşdular ki, ən yaxşı əməl nədir? Buyurdu:) Əvvəl vaxtda qılınan namaz.” * * *

Hədis 460: Həzrət Məhəmməd (s) buyurur: “Çox danışmağı tərk et, istəyinə çatacağın qədər danışmağın kifayət edər.” * * *

Hədis 461: İmam Sadiq (ə) buyurur: “Həqiqətən, insan günah edərkən ona sübhdən gecəyə qədər möhlət verilər. Əgər tövbə edərsə, bu günah ona yazılmaz.” * * *

Hədis 462: Həzrət Əli (ə) buyurur: “Xalq ilə elə rəftar edin ki, əgər həmin halda ölsəniz, sizə ağlasınlar və sağ qalsanız, sizinlə ünsiyyətdə olmaq istəsinlər.” * * *

Hədis 463: Həzrət Əli (ə) buyurur: “Ey Adəm övladı, Allaha itaətsizlik etdiyin halda, Onun sənə çoxlu ne`mət əta etdiyini görərsənsə, bu işin sonundan qorx.” * * *

Hədis 464: Həzrət Əli (ə) buyurur: “Zarafat və oyunbazlıqdan, artıq məzələnməkdən, gülüşdən və boş işlərdən çəkin.” * * *

Hədis 465: İmam Sadiq (ə) buyurur: “Düşmənlər sizi qabaqlayıb övladlarınızı azdırmamış, onlara din barəsində hədislər və İslam maarifini öyrədin.” * * *

Hədis 466: Həzrət Əli (ə) buyurur: “Allah lə`nət etsin o kəslərə ki, camaatı yaxşı işlərə də`vət edirlər, amma özləri bu işə əməl etmirlər, eləcə də başqalarını pis

işdən çəkindirirlər, amma özləri çəkinmirlər.” * * *

Hədis 467: İmam Sadiq (ə) buyurur: “Bizim şiəmiz o kəsdir ki, acından ölsə də belə, camaatdan bir şey diləməz.” * * *

Hədis 468: “(Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurdu:) “Oğlum, heç kəsin qulu olma, Allah səni azad yaratmışdır.” * * *

Hədis 469: Həzrət Əli (ə) buyurur: “Nəhy əz munkəri, yə`ni pis işdən çəkindirməyi qəlbi, dili və əli ilə tərk edən kəs dirilər arasında olan ölüdür.” * * *

Hədis 470: İmam Riza (ə) buyurur: “Övlad qarşısında ata-ananın vəzifəsi ona yaxşı ad qoymaq, ədəb öyrətmək və Qur`an tə`lim etməkdir.” * * *

Hədis 471: İmam Riza (ə) buyurur: “Var-dövlət beş xasiyyətlə toplana bilər: qatı xəsislik, uzun-uzadı arzular, böyük hərislik, qohumluq əlaqəsini kəsmək və dünyanı axirətdən üstün tutmaq.” * * *

Hədis 472: İmam Baqir (ə) buyurur: “Allah-təala qiyamət günü bəndələrinin sorğusunu onlara verdiyi ağıl qədər (dəqiq) aparar.” * * *

Hədis 473: İmam Sadiq (ə) buyurur: “Zarafatlaşmaqdan çəkin, çünki o, kişinin abrını və heybətini aparar.” * * *

Hədis 474: İmam Səccad (ə) buyurur: “İstər kiçik olsun, ya böyük, istərsə də ciddi olsun, ya zarafat üzü ilə − yalan danışmaqdan çəkin. Həqiqətən, kiçik yalan danışan kəs böyük yalana da cəsarətlənər.” * * *v Hədis 475: Həzrət Əli (ə) buyurur: “Məsləhət etməyən kəs peşman olar.”

Hədis 476: Həzrət Məhəmməd (s) buyurur: “İnsan üçün elə bir zaman gələr ki, dünyasını salamat gördüyü halda dinini itirməkdən qorxmaz.” * * *

Hədis 477: Həzrət Məhəmməd (s) buyurur: “İki günü bərabər olan kəs zərərdədir.” * * *

Hədis 478: Həzrət Əli (ə) buyurur: “Tamah yolunu seçən kəs özünü kiçiltdi, çətinliyini bildirən kəs zillətə boyun əydi, dilini özünə hakim edən kəs özünü qiymətdən saldı.” * * *

Hədis 479: İmam Baqir (ə) buyurur: “Süstlük və tənbəllik insanın dininə və dünyasına zərər vurar.” * * *

Hədis 480: İmam Sadiq (ə) buyurur: “Dostlarımın (qardaşlarımın) ən yaxşısı eybimi mənə hədiyyə edən kəsdir.” * * *

Hədis 481: İmam Riza (ə) buyurur: “Allahın az ruzisinə razı olan kəsin Allah da az

əməlinə razı olar.” * * *

Hədis 482: İmam Sadiq (ə) buyurur: “Bizim şiələrimiz onlardırlar ki, təklikdə Allahı çox zikr edərlər.” * * *

Hədis 483: Həzrət Əli (ə) buyurur: “Başqalarında eyb axtarmaq ən pis eyb və ən pis günahdır.” * * *

Hədis 484: İmam Hüseyn (ə) buyurur: “Mö`minin haqqını yerinə yetirmək, Allaha edilən ibadətlərin ən üstünüdür.” * * *

Hədis 485: Həzrət Məhəmməd (s) buyurur: “Ən güclü insan xalqa qalib gələn yox, nəfsinə qalib gələndir.” * * *

Hədis 486: Həzrət Məhəmməd (s) buyurur: “Bir şeyi bilmədən danışan kəsə göyün və yerin mələkləri lə`nət oxuyar.” * * *

Hədis 487: İmam Səccad (ə) buyurur: “Camaat elm oxumağın faydalarını bilsəydilər, qanları axıdılmaqla, dəryalara baş vurmaqla olsaydı da belə, yenə təhsil ardınca gedərdilər.” * * *

Hədis 488: Həzrət Əli (ə) buyurur: “Ən güclü günah şəhvətə tabeçilikdir. Ona itaət etməyin, yoxsa düşüncənizi Allahdan uzaqlaşdırar.” * * *

Hədis 489: Həzrət Məhəmməd (s) buyurur: “Hər kəs qırx gün Allaha ixlasla (riyasız) ibadət etsə, Allah hikmət çeşməsini onun qəlbindən dilinə axıdar.”

Hədis 490: Həzrət Əli (ə) buyurur: “Məzluma kömək və qəmgini şad etmək böyük günahların kəffarələrindəndir.” * * *

Hədis 491: Həzrət Əli (ə) buyurur: “Başqaları üçün pis hesab etdiyin işlərdən uzaqlaşmaq ədəbli olmağın üçün kifayət edər.” * * *

Hədis 492: Həzrət Əli (ə) buyurur: “Başqalarından bildiyin pis əməllərə göz yummaq ən şərəfli əməllərdəndir.” * * *

Hədis 493: Həzrət Məhəmməd (s) buyurur: “Günahın kiçikliyinə yox, kimə qarşı günah etdiyinə bax.” * * *

Hədis 494: Həzrət Məhəmməd (s) buyurur: “Ölümü çox yada salın, çünki ölümü xatırlamaq günahları yuyur və insanı dünyaya qarşı e`tinasız edir.” * * *

Hədis 495: Həzrət Məhəmməd (s) buyurur: “Allah insana onun xoş xasiyyətinə görə Allah yolunda cihad edənlərin mükafatını verər.” * * *

Hədis 496: Həzrət Məhəmməd (s) buyurur: “Mənim Əhli-beytim Nuhun gəmisi

kimidir. Ona minən nicat tapar, ondan üz çevirənsə qərq (həlak) olar.”

Hədis 497: Həzrət Məhəmməd (s) buyurur: “Ya Əli, səni sevib, məhəbbətinə sadiq olan kəsin xoş halına və sənə düşmən olub, haqqında yalan danışan kəsin də vay halına!” * * *

Hədis 498: Həzrət Məhəmməd (s) buyurur: “Başqa şeylər sizi özünə məşğul etməmiş, xeyir iş görməkdə qabağa düşün.” * * *

Hədis 499: Həzrət Əli (ə) buyurur: “Ən böyük ehtiyacsızlıq qəlbdə arzulara yol verməməkdir.” * * *

Hədis 500: İmam Sadiq (ə) buyurur: “Oruc tutarkən gözünüz və qulağınız da haramdan qorunmalı, bütün bədən üzvləriniz çirkin işlərdən uzaq olmalıdır.”

“Mənbələr”

Nəhcül-bəlağə 123-124, 126-129, 133-134, 136, 138-141, 166, 278, 432-433, 435-437, 462, 463, 466, 468, 470, 478, 490-492, 499

Üsuli-Kafi 5, 6, 8, 53, 89-95, 151, 213, 215, 356, 392-396, 398-401, 403-410, 428, 431, 434, 461, 465, 472, 473

Furui-Kafi 1-4

Vəsailüş-şiə 131, 220, 436, 444, 469

Xisal 367

Məkarimul-əxlaq 442

Əmali (Şeyx Səduq) 307

Mustədrəkul-vəsail 130, 137, 429, 438, 448, 449, 485

Tuhəfül-uqul 125, 190, 271, 304, 305, 479, 480, 486

Qurərul-hikəm 63, 76, 96-122, 135, 178-187, 198-212, 235, 245-259, 272, 288-300,307,-321, 357-366, 368-371, 373-379, 411-418, 450, 451, 454-457,464, 483, 488

Bihar 9, 188, 189, 439, 441, 445, 460, 474-477, 93,498

İrşadul-qulub (Deyləmi) 306, 324,440, 495

Səfinətul-bihar 72, 274, 402,458, 459, 500

Məcmuəyi-Vərram 84-88, 494

İsna Əşəriyyə 171-177, 322, 325-331

Əvalimul-ulum 482

Vafi 323, 484

Nəhcül-fəsahə 10-52, 54-62, 64-75, 77-83, 419, 427

Zəxairul-üqba 497

Camiul-əxbar 301-303

Ənvarul-bəhiyyə 481

Səvabul-ə`mal 430

Uddətud-dai 489

Qürrətul-uyun 467

Təraiful-hikəm 332-334, 335-355, 388, 397

Kənzul-fəvaid 446

Kəşful-ğümmə 215,216, 471

Məalimud-din 487

Ləaliyül-əxbar 453

Məhəccətul-bəyza 142-144

Munyətul-murid 169-170, 443, 447

Hilyətul-övliya 496

Rovzeyi-bihar 132, 145-150, 152-165, 191-197, 217-210, 221-234, 236-244, 260-270, 275-277, 279-287, 433, 435, 452

Hədiyyətul-əhbab 372

Mişkatul-ənvar 7